# Qarakənd faciəsi – 31 ilin müəmması

**Azərbaycanın 1991-ci il oktyabrın 18-də elan etdiyi müstəqillik ölkəmizə çox baha başa gəldi. Ermənistanın 1988-ci ildən bəri irəli sürdüyü ərazi iddiaları azmış kimi, Azərbaycanın ayrı-ayrı yerlərində– metro stansiyalarında, qatarlarda, avtobuslarda, eləcə də Qarabağ ərazisində terror aktları, təxribatlar törədilməyə başlandı. Bunların arasında ən dəhşətlisi 1991-ci il noyabrın 20-də baş vermiş, ən yeni tariximizə Qarakənd faciəsi kimi düşmüş terror aktı idi. Hadisə Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ətrafında baş vermişdi. İçərisində Azərbaycan, Rusiya və Qazaxıstan rəsmi şəxslərinin olduğu hərbi vertolyot ermənilərin silahlı quldur dəstələri tərəfindən vuruldu. Bu gün həmin amansız terror hadisəsindən 31 il keçir.**




1991-ci il noyabrın 7-də Qarabağda ermənilərin başladığı separatizmlə bağlı Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan nümayəndələrinin görüşü keçirildi. Məqsəd Qarabağda yaşayan ermənilərin doğrudanmı sıxışdırıldığını aydınlaşdırmaq idi. Razılıq əldə olundu ki, hadisələri yerində araşdırmaq üçün Xankəndiyə gedilsin. Bu ərəfədə, noyabrın 18-də SSRİ prezidenti Mixail Qorbaçovun köməkçisi Bakıya zəng vuraraq bildirir ki, ermənilərin iddiaları ilə bağlı Dağlıq Qarabağda erməni və Moskva nümayəndələrinin iclası keçiriləcək, Azərbaycan təmsilçiləri də oraya getsinlər. Bakıda güc nazirlikləri və Təhlükəsizlik Şurasının rəhbərliyindən ibarət siyahı tərtib olunur.

Məlumatlı mənbələrin o zaman verdiyi məlumatlardan aydın olur ki, həmin siyahı sonradan dəyişikliyə uğrayaraq böyük bir xəyanətlə nəticələnir. Belə ki, əvvəlcə tərtib olunmuş və noyabrın 18-də Bakı ilə razılaşdırılmış siyahıya bir neçə erməni – "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə məsul, Livan erməni diasporu ilə əlaqələndirici Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin rəhbərləri daxil edilir. Qərara alınır ki, iclas lentə alınaraq, respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilsin. Hətta saat 13:40-da Ağdam hava limanına belə bir uçuş olacağı barədə xəbər verilir. Amma sonra nə baş verirsə, bu adamlar vertolyota minmirlər.



Bunun əvəzində Moskvadan gələn zəngə əsasən iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirak etməli olduğu bildirilir. 1991-ci il noyabrın 19-da siyahı yenidən tərtib olunur. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Ancaq gecədən xeyli keçmiş siyahı təzələnir. Güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov yenidən siyahıya daxil edilir. Tofiq İsmayılov heyətə başçılıq etməli, Ağdamda Təhlükəsizlik Şurasının səyyar iclasına qatılmalı olur. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-da, saat 23:00-da təsdiqləyir.

Beləliklə, uçuşla əlaqədar bütün tədbirlər görülür, adamlara telefon zəngləri olunur, Dağlıq Qarabağın rəhbərliyinə, Ağdam hava limanına, hərbi komendanta xəbər göndərilir. Nəhayət, nümayəndə heyəti Mİ-8 N72 vertolyotu ilə yola düşür. Lakin necə olursa, bütün təhlükəsizlik tədbirlərinə baxmayaraq, saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan vertolyotla rabitə əlaqələri kəsilir. Rabitənin qırılması ilə bağlı ilk məlumatlar Xocavəndə ötürülür. Faciə haqqında ilk məlumat isə təqribən altı saatdan sonra verilir.

İlkin təhlillərə görə, Qarakənd üzərində 300 metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42-də vurulur. Hadisə haqqında birinci məlumat Azərbaycan Prezidenti Aparatına saat 19.55-də çatır. Lakin xəbər Xankəndidə erməni dilində yayımlanan xəbərlərdə saat 15:30-da, Yerevan radiosunda isə saat 16:15-də yayılır, özü də "qəza" kimi şərh olunur. Məlumatı saat 16:40-da Tehran, 17:00-da Moskva radiosu yayır.

Beləliklə, Azərbaycanın dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev – ümumilikdə, 22 nəfər həlak olur.

Sonrakı təhlillər əsasında birmənalı şəkildə təyin olundu ki, vertolyot erməni silahlı quldur dəstələri tərəfindən vurulub. Hadisə Azərbaycana qarşı birbaşa Moskvada və İrəvanda hazırlanmış məqsədli terror aktıdır. Çünki Qarakənd faciəsi ilə bağlı qaldırılmış cinayət işinin istintaqı da sonradan müəmmalı şəkildə dayandırılmışdı. Səbəb kimi, hadisənin baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması göstərilsə də, əslində daha köklü və müəmmalı səbəblər vardı. Hətta bu qədər dövlət adamının bir vertolyotda vəhşicəsinə məhv edilməsi kimi dəhşətli bir cinayəti törədən şəxsləri müəyyənləşdirmək də mümkün olmamışdı. Beləcə, izlər tamamilə itirilmişdi. Təbii ki, bu və sonradan törədilmiş çoxsaylı təxribat və terror hadisələri Azərbaycanın yenicə qazandığı müstəqilliyə qarşı yönəlmişdi…

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**